# Азярбайъан Республикасынын Милли Мятбуат, телерадио вя Интернет Шурасы Щаггында Ясаснамя

I. Ümumi müddäalar

1. Azärbaycan Respublikasının Milli Mätbuat, Teleradio vä İnternet Şurası (bundan sonra Şura) Kütlävi İnformasiya Vasitäläri (KİV) haqqında Azerbaycan Respublikası Qanun-vericiliyyinin täläblärinä ämäl olunmasına içtimayi näzarät, elektron vä İnternet KİV-in istehsalı vä yayımının qanunvericiliyä uyğun tänzimlänmäsi, dövlät orqanları ilä KİV arasında älaqänin vä etimadın möhkämländirilmäsi, fikir vä mälumat azadlığı üçün daha geniş imkanlar tämin edilmäsi mäqsäd ilä yaradılan müstäqil qurumdur.

2. Şura öz fäaliyyätindä Azärbaycan Respublikasının Konstitusiyasını, Kütlävi informasiya vasitäläri haqqında Azärbaycan Respublikasının Qanununu, diqär qanunvericilik aktlarını vä bu äsasnamäni qähbär tutur.

3. Şura müstäqil balansa, üzärindä Azär-baycan Respublikasının dövlät qerbinin täsviri vä adı häkk olunmuş möhürä, müvafiq ştamplara, blanklara, bank hesablarına malikdir.

4. Şura Dövlät Büdcäsinin väsaiti hesa-bına maliyyäläşir.

5.Şura Bakı şähärindä yerläşir.

II. Şuranın Äsas Fäaliyyät İstiqamätläri.

6.Şuranın äsas hüquq vä väzifäläri aşağı-dakılardır:

6.1. KİV haqqında Azärbaycan Respublikasının qanunvericiliyinä ämäl olunmasına näzarät etmäk;

Dövlät orqanları ilä KİV arasında münasi-bätläri vä älaqäläri tänzimlämäk;

KİV-in fäaliyyätini qanunvericiliklä müäy-yän olunmuş qaydada lisenziyalaşdırmaq;

6.4 KİV-in fäaliyyät sahälärindä baş verän hüquq pozuntularının aradan qaldırılması üçün öz sälahiyyätläri daxilindä vä qanunvericili-klä müäyyän edilmiş qaydada müvafiq täd-birlär görmäk;

qanunvericiliklä müäyyän edilmiş digär sälahiyyätläri häyata keçirmäk;

7.0 Şura bu äsasnamä ilä müäyyän edilmiş fäaliyyät istiqamätlärinä uyğun olaraq aşağıdakı äsas väzifäläri häyatä keçirir:

7.1. KİV haqqında dövlät siyasätinin täkmilläşdi-rilmäsi üçün täkliflär verir vä bu cür täkliflärin hazırlanmasında iştirak edir;

elektron vä İnternet KİV-in qanunve-riciliyä riayät etmäsinä näzarät edir;

öz sälahiyyätläri daxilindä beynälxalq täşkilatlarla, xarici dövlätlärin sälahiyyätli orqanları (qurumları) ilä ämäkdaşlıq edir;

Mätbuat Fondu yaradır vä onun işinä räh-bärlik edir;

mätbuat işçilärinin peşä ixtisasının yuksäl-dilmäsi üçün tädbirlär görür;

KİV taräfindän qanunveriliciyinin täläb-lärinä vä xusüsi razılığın (lisenziyanın) şärtlärinä riayät olunmasını müayyän etmäk üçün näzarät häyata keçirir, pozuntular haqqında arayışlar hazır-layır vä müvafiq orqanlar qarşısında mäsälä qal-dırır;

daxil olmuş ärizä vä şikayätläri araşdırır, qanunvericiliklä müäyyän olunmuş qaydada müvafiq tädbirlär görür;

öz sälahiyyätläri daxilindä KİV-dän onların fäaliyyäti haqqında sänädlär, mälumatlar vä hesabatlar alır;

KİV-in inhisara alınmasına vä KİV ihtehsılı vä yayımı sahäsindä haqsız räqabätä yol verilmämäsinä näzarät edir vä bu barädä müvafiq orqanlar qarşısında mäsälä qaldırır;

mätbuat işçilärini Şuranın işinä cälb edir, KİV vä dövlät orqanları, täşkilat, idarä vä müässisälär arasında, eyni zamanda ayrı-ayrı vätän-daşlarla fikir ayrılığı vä mübahisälär yarandıqda onlara münaşiqälärin mähkämä müdaxiläsi olmadan hälli üçün kömäk vä yardım göstärir;

Dövlätä vä cämiyyätä xidmät sahäsindä färqlänän jurnalistläri fäxri adlara, mükafatlara täqdim edir, KİV-läri vä ayrı-ayrı jurnalistläri vä digär mätbuat işçilärini müstäqil şäkildä müka-fatlandırır;

Azärbaycan jurnalistinin peşä etikası kodeksini täsdiq edir;

Öz hüquq vä sälahiyyätlärinä uyğun olaraq qanunvericiliklä müäyyän olunmuş digär väzifäläri häyata keçirir.

**III. Şuranın Fäaliyyätinin Täşkili.**

8. Şura 39 üzvdän ibäritdir. Şuranın tärkibindä üç daimi komisiiya fäaliyyät göstärir:

Mätbuat komissiyası;

Teleradio komissiyası;

İnternet komissiyası.

9. Şuraya görkämli ictimai, elm vä mädäniyyät xadimläri ilä yanaşı aşağıdakı qurum-ların nümayändäläri daxildir:

KİV vä jurnalist birlikläri;

9.2. siyasi partiyalar;

hämkarlar ittifaqları;

näşriyyat vä poliqrafiya täşkilatları;

ictimai birliklär.

10.Şuranın tärkibi aşağıdakı qaydaya müayyän olunur: üzvlärin 18 näfäri Azärbaycan Respublikasının Prezidenti täräfindän birbaşa täyin edilir, 21 näfärinin namizädliyi isä ictimai täş-kilatlar vä KİV birlikläri täräfindän iräli sürülür vä Azärbaycan Respublikasının Prezidenti täräfindän täsdiq edilir.

11.Şuraya, üzvlärinin adı säs çoxluğu ilä seçilän sädr rähbärlik edir.

Şuranın sädri:

12.1 Şuranın katibliyinin işini täşkil edir vä ona räh-bärlik edir;

12.2 Şuranın katibliyinin strukturunu, ştat cädväli-ni, struktur bölmälärini, iş planını hazırlayır vä Şuranın täsdiqinä verir;

katibliyin işçilärini väzifäyä täyin edir vä vä-

zifädän azad edir;

katibliyin işçiläri baräsindä häväsländirmä vä intizam tädbirläri görür;

Şuranın maliyyä väsaiti vä ämlakı üzärindä qanunvericiliklä müäyyän edilmiş qaydada särän-cam verir;

Şuranın qärarlarını täsdiq edir vä onların hä-yata keçirilmäsini tämin edir;

komissiyalarının fäaliyyätini älaqäländirir vä onların işinä ümumi rähbärliyi häyata keçirir;

bu äsasnamäyä vä qanunvericiliyä uyğun olaraq digär väzifäläri häyata kecirir.

13.Komissiya sädrläri komissiya üzvlärinin adi säs çoxluqu ilä seçilirlär vä eyni zamanda Şura säd-rinin müavinläri olurlar.

14.Şuranın sädrinä vä onun müavinlärinä ştat cäd-välinä müvafiq ämäk haqqı ödänilir. Şuranın qalan üzvläri ictimai äsaslarla çalışırlar.

15.Şuranın sädri vä onun müavinläri seçkili vä di-gär täyinatlı väzifälär tuta, elmi, pedaqoci vä ya-radıcılıq fäaliyyätindän başqa, heç bir ödänişli, o cümlädän sahibkarlıq fäaliyyäti ilä mäşğul ola bilmäzlär.

16.Şuranın qarşısında duran väzifälärin yerinä yetirilmäsini tämin etmäk üçün bu äsasnamä ilä müäyyän edilmiş qaydada daimi fäaliyyät gös-tärän katiblik formalaşdırılır.

IV. Mätbut komissiyası

17.Mätbuat komissiyası 21 näfärdän ibarät tärkib-dä yaranır.

18.Mätbuat komissiyasının üzvlärinä aşağıdakı mähdudiyyätlär qoyulur:

18.1 Komissiya üzvläri mätbu orqanlarında täsisçi ola bilmäzlär;

19.Mätbuat komissiyası Şuranın adından aşağıdakı sälahiyytläri häyata keçirir:

19.1 Mätbu orqanların. Fiziki vä hüquqi şäxslärdän daxil olan ärizä vä şikayätlärä baxır, qanunvericiliklä müäyyän olunmuş qaydada müvafiq tädbirlär görür;

mätbuatla dövlät orqanları vä içti-maiyyät arasında yaranan fikir ayrılığlarının mähkämä müdaxiläsi olmadan hällinä çalışır vä fikir ayrılığının aradan qaldırılmasında vasitäçi qismindä çıxış edir;

mätbuatda jurnalist etikasına ämäl olun-masına näzarät edir vä zärurät yarandıqda xüsusi räylä çıxış edir;

etik normaların pozulmasında täqsirkar olan näşrlärin fäaliyyätläri ilä bağlı xüsusi räyläri därc etdirir;

19.5 vätändaşların şäxsi häyatını qanuna zidd yersiz jurnalist müdaxiläsindän müdafiä edir;

19.6 mätbuatın maraqlarını dövlät qarşısında täm-sil edir;

19.7 rübdä bir däfä Şuranın xüsusi näşrini buraxır, illik märuzälär därc edir.

20. Haqqında şikayät daxil olan KİV-dä väziyyäti araşdırmaq üçün mätbuat komissiyası tähqiqat komissiyası yaradır. Komissiya räsmi qararını mätbuatda elan edir. Şikayät olunan mätbu orqan komissiyanın qärarını därc etmäyä borcludur.

20.1 KİV haqqında qanunvericiliyin şärtläri pozul-duğu hallarda mätbu orqana räsmän yazılı xäbär-darlıq edir, yaxud qanunvericiliklä müäyyän olun-muş digär cäza tädbirlärinin tätbiqinä dair mähkämä qarşısında iddia ilä çıxış edir.

V. Teleradio komissiyası

21.Teleradio komisiiyası 9 üzvdän ibarät tärkibdä yaradılır.

22.Komissiya üzvlärinä aşağıdakı mähdudiyyätlär qoyulur:

22.1 Teleradio komissiyasının üzvläri teleradio yayımçısının täsisçiläri (hämtäsisçiläri) ola bil-mäzlär;

22.2 komissiya üzvläri rabitä avadanlığının hazırlanması (istehsalı) vä ya satışı ilä mäşğul olan müässisä vä ya teleradio yayımını häyata keçirän här hansı täşkilatda väzifä tuta bilmäzlär;

23.Teleradio komissiyası Şuranın adından aşağı-dakı sälahiyyätläri häyata keçirir:

23.1 Teleradio fäaliyyäti sahäsindä dövlät siyasäti-nin häyata keçirilmäsi üçün täkliflär hazırlayır, teleradio yayimçısına yayım lisenziyasının veril-mäsi mäqsädi ilä müsabiqä elan edir, müsabiqänin şärtlärini hazırlayır vä qalibi müäyyänläşdirir;

23.2 teleradio yayımçısına yayım lisenziyasının verilmäsi barädä Şuraya räy hazırlayır;

23.3 teleradio yayımçısının yayım kanalları (tezlik-läri) resurslarından qanuna müvafiq istifadä etmä-sinä näzarät edir;

23.4 teleradio proqramlarının (verilişlärinin) ötürülmäsi üçün istifadä olunan texniki vasitälärin qanunvericiliklä müayyän olunmuş qaydada vä şärtlärä uyğun istismarına näzarät edir;

teleradio yayımçısı täräfindän KİV qanun-vericiliyinin täläblärinä vä yayım lisenziyasının şärtlärinä ämäl olunmasına näzarät edir;

teleradio yayımçalarından onların fäaliy-yätinä dair mälumatlar, müvafiq sänädlär vä izahatlar alır;

23.7 KİV haqqında qanunvericiliyin şärtläri pozulduğu hallarda teleradio yayımçılarına räsmän yazılı xäbärdarlıq edir vä yaxud cärimä tätbiqinä dair mähkämä qarşısında iddia ilä çıxış edir;

Qanunvericilik täläbläri müntäzäm pozul-duğu hallarda yayım lisenziyasının müväqqäti dayandırılması, yaxud läğv edilmäsi ilä bağlı mäh-kämädä iddia ilä çıxış edir;

VI. İnternet komissiyası

24.İnternet komissiyası 9 üzvdän ibarät tärkibdä yaradılır.

25.İnternet komissiyasının üzvlärinä aşağıdakı mähdudiyyätlär qoyulur:

25.1 İnternet komissiyasının üzvläri İnternet xidmätläri göstärän täşkilatların täsisçisi ola bilmäz vä ya mäsul väzifä tuta bilmäzlär;

25.2 İnternet komissiyasının üzvläri İnternet vasitäsi ilä yayımlanan mätbu orqanların vä teleradio yayımçılarının täsisçiläri ola bilmäz vä ya mäsul väzifä tuta bilmäzlär;

25.3 İnternet komissiyasının üzvläri İnternet şäbäkäsinä qoşulmaq üçün rabitä avadanlığının istehsalı vä satışı ilä mäşğul olan müässisälärin täsisçiläri olä bilmäz vä hämin müässisälärdä mä-sul väzifä tuta bilmäzlär.

26.İnternet komissiyası Şuranın adından aşağıdakı sälahiyyätläri häyata keçirir:

26.1 İnternet fäaliyyäti sahäsindä dövlät siya-sätinin häyata keçirilmäsi üçün täkliflär hazırlayır vä İnternet fäaliyyäti haqqında qanunvericiliyinin häyata keçirilmäsini tämin edir;

26.2 İnternet yolu ilä yayılan KİV täräfindän qanunvericiliyinin täläblärinä ämäl olunmasına näzarät edir;

26.3 qanunvericiliyin täläbläri pozulduğu hallarda İnternet xidmäti göstärän vä İnternet väsitäsilä KİV istehsalı vä yayımı ilä mäşğul olan şäxslärä xäbärdarlıq edir, yaxud cärimä tätbiq etmäk üçün mähkämä qarşısında iddia qaldırır;

26.4 qanunvericilik täläbläri müntäzäm po-zulduğu hallarda onların fäaliyyätinin müväqqäti dayandırılması, yaxud fäaliyyätinä xitam verilmäsi barädä mähkämädä iddia ilä çıxış edir.

27.İnternet fäaliyyäti xüsusi qanunvericiliklä tän-zimlänir.

(Äsasnamä Xalq Qäzetenin 21 iyul 2001-ci il tarixli 163 saylı nömräsindän götrülüb)